26 mart 2014

# AZƏRBAYCAN

## 20 ildən artıq keçdikdən sonra, məcburi köçkünlərin hələ də tam inteqrasiyanı dəstəkləyən siyasətə ehtiyacı var

Dağlıq Qarabağ üzərində Ermənistan ilə münaqişə nəticəsində 90-cı illərdə evlərini tərk etmiş 597000 məcburi köçkün üçün qayğı və müdafiənin əsas təminatçısı Azərbaycan hökuməti qalmaqdadır. Hökumət son 20 il ərzində məcburi köçkünlərin problemlərinə əhəmiyyətli vəsait sərf etmişdir. Həmçinin, məcburi köçkünlük barədə məlumatlılılıq artırılmış, məlumat yığılmışdır, məcburi köçkünlərin hüquqları barədə məmurlar təlimləndirilmiş, köçkünləri müdafiə edən yeni qanunlar, siyasət və proqramlar qəbul edilmişdir. Bəzi köçkünlərin hüquqları hətta onların yerli qonşularından daha üstün şəkildə təmin olunur.



Bu inzibati binada 22 ildir ki yaşayan 12 məcburi köçkün ailəsi qayıtmaq ümidini itirmişdir. Zaqatala, Azərbaycan (Foto: IDMC/N. Walicki, may 2013)

Daha yaxşı yanaşma o olar ki, məcburi köçkünlərə ehtiyaclarına əsasən yardım göstərilsin və məskunlaşdıqları yerlərdə tam inteqrasiya olunmasına kömək olunsun. Hökumətin hazırki siyasəti köçkünlüyün müvəqqəti olması və qayıdışın mümkün olmasına qədər sürəcəyi mövqeyə əsaslanır. Məcburi köçkünlərin əksəriyyəti qayıtmaq arzusundadır, lakin münaqişənin sülh yolu ilə həlli perspektivi hələ də uzaq olduğuna görə, onları vəziyyəti artıq müvəqqəti sayıla bilməz. Hökumətin qayıdışa üstünlük verməsi onu məcburi köçkünlərin qayıdışı gözlədikləri müddətdə hüquqlarının tam bərpası və özünə əminlik və inteqrasiyasının təmin edilməsindən çəkindirməməlidir.

Hökumətin göstərdiyi əhəmiyyətli yardıma baxmayaraq, məcburi köçkünlərin müdafiəsində mövcud olan boşluqlara qeyri-adekvat yaşayış şəraiti, çətin dolanış, gender əsaslı zorakılıq, ayrı təhsil, uşaqlara qarşı ayrıseçkilik və məcburi köçkünlərin onlara aid olan qərarların qəbul edilməsində az iştirak etməsi aiddir. Məcburi köçkünlərin sosial-iqtisadi vəziyyəti barədə yenilənmiş və hərtərəfli məlumat bazası olmadığına görə, neçə məcburi köçkünün hələ də bu problemlərlə üzləşdiyini dəqiq demək çətindir.

Məcburi köçkünlər üzrə Azərbaycanın növbəti dövlət proqramı 2015-ci ildən başlanır. Bu, məcburi köçkünlərlə məsləhətləşmək, onların ehtiyaclarını qiymətləndirmək və ən çox ehtiyacı olanlara yardımın göstərilməsini planlaşdırmaq üçün ideal bir fürsət yaradır. Köçkünlərin vəziyyətinin öyrənilməsi onların köçkün düşməsi ilə bağlı olan ehtiyaclarının hələ də nə dərəcədə mövcud olması aşkar etmək və növbəti dövlət proqramı çərçivəsində yardımın bu ehtiyaclara uyğun planlaşdırılmasına imkan verərdi. Bu cür tədqiqatın nəticələri həmçinin dövlət və BMT-nin 2015-ci ildən sonrakı inkişaf proqramlarının prioritetləşdirilməsi və həyata keçirilməsi üçün də faydalı olardı.




**Məcburi köçkünlərin məskunlaşdığı yaşayış yerləri**




**Xəritə:** IDMC

**Daha çox xəritələr üçün:** www.internal-displacement.org

## Tarixçə

*Münaqişə nəticəsində yaranan köçkünlük*
Azərbaycanda məcbüru köçkün problemi ölkənin Qərbində, dağlıq və münbit ərazidə yerləşən Dağlıq Qarabağ muxtar regionu üzrə Ermənistan ilə münaqişənin nəticəsində yaranmışdır. Münaqişənin kökləri XX əsrin əvvəllərinə gedib çıxsa da, münaqişə 1988-ci ildə Dağlıq Qarabağda millətçi meylləri yenidən baş qaldırdıqdan və Yerevandakı Sovet hökuməti ərazinin Ermənistana birləşməsinə razılıq verdikdən sonra başlandı. Etnik gərginlik gücləndi və hər iki tərəfdən şiddətli hücumlara gətirib çıxartdı, 1991-ci ildə iki ölkə müstəqillik əldə etdikdən sonra onların arasında tam miqyaslı müharibə başlandı. 1992-ci ildə Dağlıq Qarabağ heç bir başqa dövlət tərəfindən tanınmamış müstəqillik elan etdi.

1994-cü ildə atəşkəs barədə razılıq hərbi əməliyyatlara rəsmi olaraq son qoydu, və o vaxtdan bəri Ermənistan Dağlıq Qarabağı və onu əhatə edən 7 rayonu bütövlüklə və ya qismən nəzarət altında saxlayır. Atəşkəs əldə olunana qədər, təxminən 700000 nəfər Azərbaycanda, 30000 nəfər isə Dağlıq Qarabağın özündə köçkün düşdü (NRC, 30 aprel 2008, IDMC-nin arxivində; ICG, 11 oktyabr 2005). Münaqişə indiyə kimi öz həllini tapmayıb və sülh danışıqlarında 2011-ci ildən bəri irəliləyiş yoxdur (de Waal, 22 yanvar 2014). Məcburi köçkünlər işğal barədə milli tarixçənin əsas hissəsinə çevrilmişdir ki, onlar ərazini tərk etməyə məcbur edilmiş və qayıtmaq hüquqları əlindən alınmış kimi təqdim olunur (Wistrand, fevral 2013; European University Institute, 2013).

Azərbaycan ilə Ermənistan arasındakı münaqişə çox vaxt dondurulmuş kimi təsvir olunsa da, əslində o cəbhə xətti boyunca davam edir. 1994-cü ildə atəşkəs razılığı vasitəsilə müəyyən olunmuş 260 kilometrlik təmas xəttiinin hər iki tərəfində 20000-dən artıq hərbçi yerləşdirilib ki, bu da onu çox güman ki Avropanın ən hərbləşdirilmiş zonasına çevirir (de Waal, 2013; Saferworld and Conciliation Resources, may 2012). Atışmalar müntəzəm olaraq baş verir, və vasitəçilik səylərinin dalana diréndiyi və hər iki tərəfin sürətlə silahlandığı bir şəraitdə onlar daha da güclənir və geniş yer alır (ICG, 26 sentyabr 2013; Conciliation Resources, 20 oktyabr 2013). Təmas xəttinə nə sülhməramlı qüvvələr, nə də beynəlxalq qüvvələr nəzarət edir, lakin ATƏT-in beynəlxalq müşahidəçiləri ayda iki dəfə monitorinq aparır.

*Təbii təhlükələr nəticəsində yaranan köçkünlük*
Azərbaycan həmçinin su daşqını və zəlzələ, və daha az dərəcədə quraqlıq, torpaq sürüşməsi, qar uçqunu və sel kimi təbii fəlakətlərə məruz qalır ki, bunlar da köçkünlüyə səbəb ola bilər (UNICEF və UNISDR, dekabr 2011, səh. 47; IFRC, 31 iyul 2013; Oxu.az, 5 iyul 2013; Day.az, 3 iyul 2013; Zoi Environment Network, 2011). Azərbaycan rəsmiləri təsdiq edir ki, ölkənin 9,5 milyon əhalisinin təxminən 50% zəlzələyə məruz qalan ərazidə yaşayır (Trend, 18 iyun 2012). Dünyanın ən iri təbii qapalı su hövzəsi olan Xəzər dənizinin səviyyəsinin qalxıb-enməsi mövsumi yağıntı miqdarlarının dəyişməsinə və torpaq sürüşmələri, qar uçqunları, çay daşqınları və sellərin yaranmasına səbəb ola bilər ki, bu da hazırlıq görülmədiyi halda fəlakət və köçkünlüyə gətirib çıxarda bilər (UNISDR və Dünya Bankı , 2009, səh. 30).

Ən son təbii fəlakətlər 2012 və 2010-cu illərdə baş vermişdir. Şimali-qərbi Azərbaycanda 2012-ci ildə baş vermiş zəlzələ nəticəsində 7000-dən artıq ev dağılmış və ya zədələnmişdir ki, nəticədə eyni sayda ailə çadır və digər sığınacaqlara evakuasiya olundu (IFRC, 23 may 2012; IFRC, 22 dekabr 2012). 2010-cu ildə güclü yağışlar Azərbaycanın mərkəzi və cənubi zonalarda Kür ətrafında 40 rayonda daşqına səbəb oldu və Sabirabad rayonunda 24 000 nəfərə, cəmi isə 70 000 nəfərə ziyan dəydi. 20 000-dən çox evi su

basdı, onlardan 2 300 təmir olunmaz vəziyyətə düşdü, 60 000 ha kənd təsərrüfatı torpağı su altında qaldı (CRED, may 2012, IFRC, dekabr 2010). Bu fəlakətlər Dağlıq Qarabağ münaqişəsi nəticəsində köçkün düşmüş əhaliyə əhəmiyyətli təsir göstərməmişdir.

## Köçkünlük üzrə rəqəmlər və faktlar

Nazirlər Kabinetinə daxil olan Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Azərbaycanda daxili köçkünlük üzrə statistikanın yeganə mənbəyidir. Onun verdiyi məlumata əsasən, 2014-cü ildə 597429 nəfər məcburi köçkün qeydiyyatda durmuşdur (Azərbaycan Hökuməti ilə elektron yazışma, 31 yanvar 2014). Onların əksəriyyəti milliyyətçə Azərbaycanlı, lakin aralarında həmçinin Kürd, Rus və Türklər da vardır (CoAvropa Şurası, 24 May 2007; UNCHR, 25 yanvar 1999). Onların çox hissəsi Dağlıq Qarabağın özündən deyil, ətrafında işğal olunmuş ərazilərdən köçkün düşüblər (de Waal, 26 iyun 2013; UNCHR, 25 yanvar 1999).

Dövlət statistikasına 230000-ə yaxın məcburi köçkün uşaq (Azərbaycan Hökuməti ilə elektron yazışma, 5 sentyabr 2014), və qayıda bilmiş 54000 nəfər köçkün da daxil edilir. (NRC, 29 fevral 2008, IDMC-nin arxivində). Bu rəqəm həmçinin təmas xətti boyunca məskunlaşmış və köçkün düşməmiş, lakin məruz qaldıqları təhlükənin miqyasına görə məcburi köçkün kimi qeydiyyata alınmış əhali də daxildir (Brookings-LSE, dekabr 2011). Eyni zamanda, baxmayaraq ki qanunvericilikdə köçkünlüyün səbəbləri kimi "hərbi aqressiya, təbii və ya texnoloji fəlakət" müəyyən edilir, təbii fəlakət nəticəsində köçkün düşmüş əhali bu statistikaya daxil olunmayıb (Azərbaycan Hökuməti, 1999). Məcburi köçkünlərin övladlarının, qayıtmış köçkünlərin və təhlükəli ərazilərdə yaşayan əhalinin daxil edilməsi, fəlakətlər nəticəsində köçkün düşənlərin isə daxil edilməməsi həm Məcburi Köçkünlük üzrə Rəhbər Prinsiplərdə müəyyən olunun kriteriyalara, həm də ki məcburi köçkün statusu üzrə Azərbaycan Respublikasının 1999-cu ildə qəbul olunmuş qanuna ziddir və ümumi rəqəmin süni şəkildə şişirdilməsinə gətirir.

Məcburi köçkünlər ölkənin 69 rayonunda məskunlaşsa da, təxminən yarısı paytaxt Bakıda yaşayır (Eurasianet, 20 noyabr 2013). 32%-ə yaxın köçkün hələ də kollektiv mərkəzlər kimi də tanınan ictimai binalarda yaşayır ki, bu binalar köçkünlük başlayanda onlara müvəqqəti yaşayış kimi təklif olunmuşdur. 25%-ə qədər köçkün hökumətin təmin etdiyi yeni yaşayış yerlərində, 20% qohumların evlərində, 12% isə əl altında olan materiallardan düzəldilmiş yaşayış yerlərində yaşayır. Təxminən 8% digər insanların mülkiyyətini zəbt etmişdir (Azərbaycan Hökuməti ilə elektron yazışma, 5 sentyabr 2013).

## Müdafiə məsələləri

Köçkünlərin hüquqlarının bərpa olunması məqsədilə hökumət misli görülməmiş vəsait ayırmış və bir çox müsbət diskriminasiya tədbirləri həyata keçirmişdir. Buna baxmayaraq, müdafiə problemləri hələ də mövcuddur, bunlar da rəsmi mövqeyin mərkəzində qayıdışın durması və bununla bağlı köçkünlərin məskunlaşdıqları yerlərdə inteqrasiya olunmasına yardımın göstərilməməsidir. Bu problemlərə qeyri-adekvat yaşayış şəraiti, çətin dolanış, ailə/cinsi zorakılıq, ayrı təhsil, uşaqlara qarşı diskriminasiya *və məcburi köçkünlərin onlara ai*d olan qərarların qəbul edilməsində az *iştirak etməsi aiddir.* Hökumət bu məsələlərin həlli üçün köçkünlərlə məsləhətləşərək, onların ehtiyacları barədə geniş məlumat yığıb, bu məlumatı köçkünlər üzrə növbəti dövlət proqramının hazırlanması üçün və beynəlxalq və yerlı təşkilatların işinin qurulması üçün istifadə edə bilərdi.

*Qeyri-adekvat yaşayış şəraiti*

Son on il ərzində hökumət ictimai binalarda məskunlaşmış məcburi köçkünlərin yeni yaşayış yerləri üçün əhəmiyyətli vəsait ayırmışdır. Hökumət, Qaçqınlar və Məcburi Köçkünlərin Yaşayış Şəraitinin Yaxşılaşdırılması və İş Yerlərinin Yaradılması üzrə Dövlət Proqramı çərçivəsində, 2007-ci ilə qədər köçkünlərin 10 ildən artıq yaşadıqları düşərgələri bağladı. 2014-cü ilə qədər 180 000 yaxın məcburi köçkün və qaçqın onlar üçün tikilmiş və yeni məktəblər və tibbi mərkəzlərlə təmin olunmuş 80-dan artıq yeni qəsəbəyə köçürülmüşdür. (Azərbaycan Hökuməti, 27 noyabr 2013; Azərbaycan Hökuməti, 1 iyul 2004). Bu günə kimi tikilmiş ən böyük qəsəbə olan Müşviqabadda 60000 əhali yaşayır (Zerkalo, 28 fevral 2013). Ölkənin şimal-qərbində olan bəzi regionlarda yerli rəsmilər başqa rayonlardan köçkünlərin qohumlarını köçürtməklə ailələrin birləşməsinə şərait yaratmışdır və yaxınlıqda yerləşən torpaq sahələrinin əkin, otlaq və digər təsərrüfat məqsələri üçün istifadə olunmasına imkan vermişdir.

Hökumət həmçinin bəyan etmişdir ki, Abşeron rayonunda ən azı 90000 məcburi köçkünü yeni yaşayış yerləri ilə təmin edəcək ki, bu köçkünlərdən 5400-ü köçkün düşdükləri vaxtdan başqaların evlərini zəbt etmişdir (Contact.az, 15 yanvar 2013). Bu qrupun köçürülməsi İnsan Haqqları üzrə Avropa Məhkəməsinin evlərin mülkiyyətçilərin xeyrinə çıxartdığı bir sıra qərarların yerinə yetirilməsinə gətirib çıxardacaq ki, Azərbaycan 2002-ci ildə İnsan Haqqları üzrə Avropa Konvensiyasına qoşulduğuna görə bu qərarları yerinə yetirməyə borcludur (Radio Azadlyg, 12 fevral 2013). 2015-ci ilin sonuna kimi hökumət hərbi bazalarda, məktəblərdə, uşaq bağçalarında, sanatoriyalarda və yay düşərgələrində məskunlaşmış digər 110 000 məcburi köçkünü evlə təmin etməyi planlaşdırır (Eurasianet, 19 noyabr 2013). Əgər iş plan üzrə gedərsə, ölkədəki köçkünlərin 70% yeni yaşayış yeri ilə təmin olunmuş olacaq.

Bu səylər, şübhəsiz ki on minlərlə insanın həyat şəraitini yaxşılaşdırmışdır, lakin ev tikintisi proqramının çatışmazlıqları da qeyd olunur. Bəzi yeni evlərin keyfiyyəti aşağıdır və hazır olduğu vaxtdan bir neçə ay sonra təmirə ehtiyacı olmuşdur. Bəzi qəsəbələrdə su, nəqliyyat, torpaq və iş yerləri məhduddur. Rəsmilər bunun əksini bəyan etsələr də, məcburi köçkünlərin sözlərinə əsasən, planlaşdırma prosesində onlar iştirak etməmişdir. Bir çox köçkünlər, xüsusilə də qadınlar, hökumətin yerləşdirmə planları barədə az məlumata malikdir və özlərinin köçürülüb-köçürülməyəcəyi barədə məlumatsızdır (Brookings-LSE, dekabr 2011). Bəziləri yaşadıqları yerləri təmir etməyə yardım göstərilməklə hazırki yerlərdə qalmağı üstün tutardı, lakin bu seçim onlara verilmədi. Vəsaitin sərf olunmasına monitorinq aparılmayıb, və bəzi köçkünlər qeyd edir ki, nəticədə onlar planlaşdırılandan aşağı keyfiyyətli ev alıb (Obyektiv TV, 31 avqust 2012; ICG, 27 fevral 2012; Kavkaz Uzel, 5 may 2011; CoE, 31 may 2011).

Yeni evlər müvəqqəti olaraq, köçkünlərin qayıdışı mümkün olana qədər istifadəyə verilir, və onları kirayə vermək, satmaq və ya girov qoymaq olmaz. İcma birliyini qorumaq məqsədilə yeni qəsəbələr əsasən mövcud yerli icmalardan təcrid olunub. Beləliklə, proqram məcburi köçkünlərin kollektiv şəkildə və ümumi əhalidən ayrı məskunlaşdırılmasını davam etdirib. Bu siyasət köçkünlərin yeni qəsəbələrdə inteqrasiya olunmasına manə olur və onlarda bu yaşayış yerlərinin müvəqqəti olması, və sonda qayıdışın yeganə mümkün olan həll yolu fikrini möhkəmləndirir. Bu həmçinin məcburi köçkünləri kasıb və aciz kimi damğalayır ki, nəticədə onların özünə güvənliliyi artırmaq səyləri zəifləyir (Wistrand, fevral 2013). Yaşayış yerləri üzrə hökumət proqramı köçkünlərin seqreqasiyasını artırmağa yox, ona son qoymağa yardım etməlidir.

Yeni evlərlə təmin olunmamış köçkünlər yayarsız şəraitində yaşamağa davam edirlər. Tək otaqlarda məskunlaşmış ailələr böyüdükcə yataqxana və digər ictimai binalarda olan yaşayış sahələri daralır. Çoxlu ailələr eyni mətbəx və sanitar qovşağından istifadə edir və santexnika problemləri, rütubət və digər nasazlıqlar adi hal alıb. Elektrik xəttləri açıqda qalır və əldəqayırma birləşdirmələrlə bağlanaraq həddindən artıq yüklənir. Bəzi hallarda, belə problemlər bütöv mərtəbələrin və hətta binaların dağılmasına səbəb olub və yanğınlar da baş verib (Gapp, 8 may 2013; Kavkaz Uzel, 3 sentyabr 2011; Radio Azadlyg, 30 iyun 2011; Obyektiv TV, 25 mart 2013; Kavkaz Uzel, 13 iyun 2012; Contact.az, 2012; Radio Azadlyg, 4 fevral 2011; Eurasianet, 19 noyabr 2013). İctimai binalarda yaşayan bəzi məcburi köçkünlər şəhərsalma məqsədilə evlərdən çıxarılmış, lakin bəzi hallarda alternativ yaşayış ilə təmin olunmamışdır. (HRW, 6 may 2013; Radio Azadlyg, 15 yanvar 2011; RFE/RL, 31 iyul 2013; BBC, 21 may 2012; RFE/RL, 5 iyul 2013; HETQ, 18 iyun 2013).

Digər məcburi köçkünlər isə hələ də köhnə materiallardan düzəldilmiş və heç bir kommunal xidməti və sanitar qovşağı olmayan sığınacaqlarda yaşayırlar. Belə sığınacaqlar dəmir yol vaqonlarından tutmuş zirzəmilər, futbol stadionların altındakı sahələrə kimi yerlərdə qurulmuşdur, və xüsusilə qəzalı yerlərdə oynayan uşaqlar üçün təhlükəlidir (Radio Azadlyg, 3 aprel 2013; IWPR, 5 noyabr 2012; Wistrand, fevral 2013; Contact.az, 2 sentyabr 2013). Kənd yerlərində də köçkünlərin yaşayış şəraiti qeyri-uyğundur və insanların yüksək sıxlığı, bəzi yerlərdə yolların pis vəziyyəti və suyun məhdud olması ilə səciyyələnir (World Bank, aprel 2013). Belə qeyri-uyğun yaşayış şəraitində köçkünlər ürək xəstəlikləri, qan təzyiqi, diabet, revmatizm, ruhi xəstəliklər və başqa səhhət problemləri ilə üzləşir. (Brookings-LSE, dekabr 2011;CIE, 2013; UNHCR, 2009; European University Institute, 2013). İctimai binalarda, düzəldilmiş sığınacaq və kənd yerlərində yaşayan köçkünlərin əksəriyyəti əsaslı təmir işlərinə vəsait qoymurlar, çünki elə fikirdədirlər ki, vəziyyətləri müvəqqətidir və yerləşdiyi mülkiyyət onlara məxsus deyil. Nəticədə onların yaşayış şəraiti köçkün düşəndən bəri daha da pisləşmişdir.

*Çətin dolanış*

Məcburi köçkünlər hələ də ümumi əhaliyə nisbətən daha aşağı məşğulluq və yüksək yoxsulluq səviyyələri ilə səciyyələnir. Rəsmi rəqəmlərə əsasən, köçkünlər arasında yoxsulluq səviyyəsi 2003-cü və 2013-cü illər arasında 75%-dən 18%-ə düşdüyü halda, ümumi əhali arasında isə bu rəqəm 50%-dən 6%-ə düşmüşdür. (Trend.Az, 20 iyun 2013; Azərbaycan Hökuməti, 3 may 2013). Çox güman ki, hökumətin müsbət diskriminasiya tədbirləri nəticəsində bu göstərici köçkünlər arasında daha çox aşağı düşmüşdür. 2011-ci ildə Dünya Bankı məlumat vermişdir ki, köçkünlər arasında yoxsulluq səviyyəsi 25% olduğu halda, ümumi əhali arasında bu 20% olmuşdur. İşsizlik isə köçkünlər arasında 60% olduğu halda, ümumi əhali arasında 43% olmuşdur. Kənd yerlərində və cavan köçkünlər arasında vəziyyət daha da pisdir (Dünya Bankı, oktyabr 2011). Köçkünlərə ayrılan torpaq nisbətən az münbitdir ki, bu da onların gəlir əldə etmək imkanlarını məhdudlaşdırır.

Dövlət müavinəti köçkünlərin 70% üçün əsas gəlir mənbəyi olaraq qalmaqdadır. Buna 23 dollardan bir az yuxarı olan aylıq müavinət, və az-təminatlı qruplar üçün digər sosial yardım aiddir (UNHCR, oktyabr 2012, səh. 3, Dünya Bankı, oktyabr 2011). Köçkünlərin 40%-nin işlədiyini nəzərə alsaq demək olar ki, onların bəzisi üçün qazandıqları əsas ehtiyaclarını ödəmir. 2011-ci ilin yanvarından aylıq müəvinət alanların 70 000 nəfərinə bu yardım artıq verilmir (Caucasian Knot, 20 may 2011). Bunlara dövlət işində, hüquq-

mühafizə orqanlarında və orduda çalışan köçkünlər; sahib olduğu mülkiyyətdə daimi qeydiyyatda olanlar, və hər iki valideyni köçkün olmayan uşaqlar aiddir (News Azerbaijan, 10 yanvar 2011; Radio Azadlyg, 6 mart 2012). Köçkünlərin sözlərinə əsasən, onlar köçkün müavinətindən başqa növ dövlət yardımına müraciət etdikdə onlardan rüşvət tələb edirlər (Brookings-LSE, dekabr 2011).

Məcburi köçkünlər arasında yüksək işsizlik səviyyəsi iqtisadi çətinlikdən əlavə başqa təsirlərə də malikdir. 2013-cü ildə Azərbaycanda 5000 erkən nikah bağlanmışdır və ailə üçün qazanc əldə etmək səbəbilə məktəbdən yayınan uşaqlar da var. Erkən nikahlar və uşaq əməyi problemi köçkünlərə də təsir edir, lakin bu təsirin miqyasını göstərən konkret statistika mövcud deyil (European University Institute, 2013; Wistrand, 2013; UN SR, 6 dekabr 2013). Erkən nikahlar gəlin ailəsinin maddi vəziyyətini yüngülləşdirə bilərsə də, qızların fiziki, mənəvi və reproduktiv səhhəti üçün zərərlidir. Bir çox ailələr iş qabiliyyətli kişilərin Azərbaycanın digər bölgələrinə və ya Rusiyaya qazanc dalınca getməsi üzündən dağılmalı olub, lakin neçə köçkünün əmək miqrantı olmasına dair də rəqəmlər yoxdur (IDMC, may 2013; UNCHR, 25 yanvar 1999; European University Institute, 2013).

Digər köçkün ailələri isə iş dalınca başqa yerlərə köçməyə meylli deyil. Onlar qeyd edir ki, aylıq müavinət və yeni evlər daxil olmaqla köçkünlərə edilən digər yardımlar onların davamlı olaraq dövlət qeydiyyatında durduqları yerlərdə qalmasına bağlıdır (UNHCR, 2009; European University Institute, 2013). Yardımı köçkünlərin qeydiyyatda olduğu ünvanlara bağlamaqla hökumət köçkün düşmüş icmaları qoruyub saxlamağa çalışır ki, qayıdış mümkün olanda onlar daha asanlıqla re-inteqrasiya olunsunlar. Lakin eyni zamanda onların hərəkət azadlığı və yaşayış yeri seçmək hüquqları məhdudlaşdırılır. BMT-nin İnsan Haqqları Komitəsinin tövsiyəsinə əsasən, Azərbaycan ünvanların qeydiyyat qaydalarını asanlaşdırmaqla köçkünlərin öz hüquqlarının tam şəkildə həyata keçirilməsini təmin etməlidir (UN CCPR, 13 avqust 2009).

Təmas xətti boyunca təhlükəli şərait orada yaşayan insanların torpaqlarından gəlir əldə etmək üçün istifadəsini çətinləşdirir. Həm yerli, həm köçkünlərdən ibarət olan 128 000 nəfərə yaxın əhali təmas xəttindən 5 km və ya daha az məsafədə yaşayır (ICG, 27 fevral 2012). Demək olar ki heç bir iş yeri və ya gəlir qazanmaq fürsəti olmayan şəraitdə yaşayan əhalinin əksəriyyəti fermer təsərrüfatlardan asılıdır, lakin onların dolanışına ciddi ziyan vurulub, çünki torpaqları erməni qoşunları tərəfindən zəbt olunub və ya təmas xəttinə çox yaxın yerləşir. (Britaniya Qırmızı Xaç Komitəsi, 27 iyun 2012; Brookings-LSE, dekabr 2011; Saferworld and Conciliation Resources, may 2012). Azərbaycanın Ərazilərin Minalardan Təmizlənməsi Üzrə Milli Agentliyi minaları təmizləmək və əhalini məlumatlandırmaq üzrə işini davam etdirir (ANAMA, yanvar 2014), və Azərbaycan Bərpa və Yenidənqurma Agentliyi (ARRA) və Beynəlxalq Qızıl Xaç Komitəsi (ICRC) sakinləri təsadüfi güllələrdən qorumaq üçün qoruyucu divarlar tikmiş və evləri təzədən qurmuşdu (ICRC, 27 iyun 2013; ICRC, 12 sentyabr 2013; Brookings-LSE, dekabr 2011). Bu səylərə baxmayaraq, sakinlər torpaqlarından istifadə edərək gəlir qazanmaqda çətinlik çəkirlər.

*Ayrılmış təhsil*

Böyük icmalarda məcburi köçkünlərə qalan əhalidən ayrı təhsil almaq təklif olunur. Valideynlər uşaqlarını ümumi əhali üçün olan məktəblərə və ya xüsusilə köçkünlər üçün olan məktəblərə göndərmək seçiminə malikdir. Tədris proqramı eynidir, və çox vaxt hər iki məktəb eyni binada yerləşir. Köçkün uşaqların təxminən 60% ayrıca təhsil alır, və hökumət bütün köçkünləri məktəb dərslikləri və ali

məktəb təhsil haqqlarını ödəməkdən azad edib (CIE, 2013). Ayrılmış təhsili davam etdirməkdə hökumətin məqsədi bu uşaqların köçkünlüyə daha asan uyğunlaşması və köçkün icmaların qorunub saxlanmasıdır ki, bu da öz növbəsində onların torpaqlarına qayıtdıqları zaman inteqrasiyanı asanlaşdıracaq. Bir çox köçkünlər uşaqları öz irsini başa düşsünlər deyə və həmçinin köçkün məktəblərində müəllimləri daha diqqətli və əməkdaşlığa gedən hesab etdikləri üçün öz statuslarını və ayrı təhsili yüksək qiymətləndirir və onu qoruyub saxlamaq istəyirlər (Brookings-LSE, dekabr 2011).

Lakin uzunmüddətli seqreqasiya uşaqlar üçün faydalı deyildir. Siyasi xadimlər razılaşır ki, köçkün uşaqlar sığınacaq aldıqları yerə çatan kimi yerli məktəblərə getməlidir (Brookings-Bern, 2008, səh.226; UNHCR, fevral 2003, səh.48; UNHCR, 1994, səh.112). Köçkünlükdən dərhal sonra praktiki məsələlərə görə uşaqların ayrı təhsil alması üçün tədbirlər zəruri ola bilər, lakin köçkünlük davam etdikcə hətta valideynlər tərəfdarı olsa belə, buna bəraət qazandırmaq çətinləşir (IDMC, 2011). Seqreqasiya köçkünlərin damğalanmasını və geniş icmalardan təcridini gücləndirir, keçmiş üçün nostalgiyanı artırır, beləliklə də inteqrasiyanın qarşısını alır və onların çətin sosial vəziyyətini daha da ağırlaşdırır (CIE, 2013; Wistrand, fevral 2013; NRC, mart 2010).

BMT-nin bir neçə təşkilatı tərəfindən tövsiyə olunduğu kimi, yerli uşaqlarla birgə təhsil almaq köçkün uşaqların və onların valideynlərinin inteqrasiyasını sürətləndirər və qayıtmaq imkanı olmayan şəraitdə hökumətin təmin etməli olduğu hüquqları bərpa etməyə kömək edər. (UNHRC, 23 dekabr 2010; UN CEDAW, 2009; UN CERD, 7 sentyabr 2009; UNCHR, 25 yanvar 1999). Baş Katibin köçkünlərin insan haqqları üzrə keçmiş nümayəndəsi Walter Kälinin 2008-ci ildə tövsiyə etdiyi kimi, köçkünlərin cəmiyyətin tam üzvlərinə çevrilməsi məqsədilə onların ehtiyacları və problemlərini daha yaxşı başa düşmək üçün köçkün məktəblərində təhsilin keyfiyyəti, onun nə dərəcədə əlçatan olması, şagirdlərin nailiyyətləri və məktəb barədə fikirləri öyrənilməlidir (UNHRC, 15 aprel 2008).

*Gender əsaslı zorakılıq*

Məcburi köçkün qadınlar və qızlar valideynləri, həyat yoldaşları və onların ailə üzvləri tərəfindən ümumi əhaliyə nisbətən daha tez-tez zorakılığa məruz qalır ki, buna səbəb onların maddi cəhətdən daha müdafiəsiz olmasıdır (Pathfinder International, 2000; UNIFEM, 2006; UNFPA, 2008; WARD, 2009; UNFPA, 2011). Ailədə maliyyə çatışmazlığı, yaşayış sahələrin darlığı və gələcək perspektivlərin azlığı nəticədə zorakılığa, həmçinin azyaşlı və qeydiyyatsız nikahlara gətirib çıxardır (UN CRC, 12 mart 2012). Belə nikahların sayı 2012-ci ildə 4000 idisə, 2011-ci ildə nikaha daxil olmaq üçün rəsmi yaş həddi 18-ə qaldırılandan sonra 2013-cü ildə 5000 çatdı (UN CESCR, 5 iyun 2013). Ailə birliyi və “ayıb” anlayışları, damğalanmanın geniş yayılması, həmçinin polis və ailələrə dəstək mərkəzlərinin qadınlara qarşı zorakılığa şəxsi məsələ kimi baxması qadınları və qızları susmağa məcbur edir (UN SR, 5 dekabr 2013).

BMT-nin saysız təşkilatları tərəfindən məsləhət görüldüyü kimi, hökumət bu problemin aradan qaldırılması naminə birinci ciddi addım kimi ümumi əhali və ayrıca köçkünlər arasında azyaşlılarla nikahların yayılması dərəcəsi üzrə təfərrüatlı statistika yığmalıdır (UN CESCR, 5 iyun 2013; UN CEDAW, 2009; UN CCPR, 13 avqust 2009). BTM-nin Qadınlara Qarşı Diskriminasiyanın Aradan Qaldırılması üzrə Komitəsi və BMT-nin qadınlara qarşı zorakılıq üzrə Xüsusi Hesabatçısı tərəfindən də tövsiyə edilib ki, hökumət köçkün qadınlar və qızlar üçün təhsil, iş, səhiyyə və yaşayış yeri imkanlarının artırılması üçün tədbir görsün və ictimai binaların təmiri zamanı köçkünlərlə,

və xüsusilə də qadınlarla məsləhətləşsin (UN CEDAW, 2009; UN SR, 5 dekabr 2013). Belə tədbirlər onların özünə güvənliliyi, həmçinin ailə həyatlarının keyfiyyətini və onları əhatə edən icmalara olan töhfələrini artırmış olardı.

*Məcburi köçkün uşaqlara qarşı ayrıseçkilik*
Məcburi köçkün kimi qeydiyyatda olan qadınların uşaqları eyni qeydiyyatlı kişilərin uşaqlarından fərqli rəftar olunur. Atası qeydiyyatda olan, anası isə olmayan uşaqlar köçkün kimi qeydiyyata alına bilər və bundan irəli gələn sosial müavinətləri ala bilir. Bu həmçinin boşanmış, dul qalmış və ya evli olmayan və köçkün kimi qeydiyyatda olan qadınların uşaqlarına da şamil edilir. Lakin anası qeydiyyatda olan, atası isə olmayan uşaqlar köçkün klimi qeydiyyata alınmır. Nəticədə köçkünlərin uşaqları atalarının qeydiyyatından asılı olaraq müxtəlif cür rəftar olunur.

Hökumət bu yanaşmanı belə izah edir ki, məcburi köçkün qadınlar evləndikdə onlar ərlərinin evinə köçür və uşaqları ilə bərabər orada qeydiyyata durur. Köçkün olmayan kişilər mülkiyyət və yaşayış yerlərinə sahibdir, bu da o deməkdir ki onların uşaqlarını köçkün kimi qeydiyyata almağa ehtiyac yoxdur. Köçkünlük qeydiyyatı olan kişilərin uşaqları atalarının qeydiyyatda olduqları yerdə qeydiyyatdadır. Bu cür ayrı-seçkiliyin qarşısını almaq üçün köçkün uşaqların qeydiyyatı ehtiyaclara əsasən aparılmalıdır.

*İctimai həyatda məhdud iştirak*
Məcburi köçkünlər köçüb məskunlaşdığı yerlərdə bələdiyyə seçkilərində səs verə və ya namizədlik verə bilməzlər. Hökumət işğal altında olan rayonların seçki dairələrini qayıdış mümkün olan vaxt üçün qoruyub saxlayır. Bəzi köçkünlər özləri icmalarının bütövlüyünü qorumaq və parlamentdə ayrıca səs ilə təmsil olunmaq naminə bu cür yanaşmanın tərəfdarlarıdır (Brookings-LSE, dekabr 2011; ICG, 27 ferval 2012). Nəticə etibarilə isə, məcburi köçkünlər yerli siyasətdə heç bir təsirə malik deyil və vacib saydıqları yerli məsələlər barədə kampaniya apara bilmir. Yerli siyasətdə iştirak etməməsi onların yerli hökumət resurslarına çıxış imkanlarını məhdudlaşdırır və onların köçkünlüklə bağlı ehtiyaclarının ödənilməsi imkanlarını da azaldır. Bu həmçinin onların inteqrasiyasını da çətinləşdirir, xüsusilə də həyatlarına təsir edən qərarlarda iştirak etmək üçün digər imkanların olmadığı bir şəraitdə. Onların əvəzinə qərarların qəbul olunması köçkünlərin özünə güvənliliyini artırmır, əksinə, hökumət yardımından asılılığı çoxaldır (Brookings-LSE, dekabr 2011; ICG, 27 fevral 2012).

## Problemin davamlı şəkildə həll olunması üçün perspektivlər

*Məhdud yerləşdirilmə seçimləri*
Hökumətin məcburi köçkünlər üçün üstünlük verdiyi yerləşdirmə variantı onların Dağlıq Qarabağ ətrafındakı yeddi rayona və Qarabağın özünə qayıtmasıdır. Məlumat verilir ki, 2005-ci ildə hökumət beynəlxalq təşkilatlarla məsləhətləşərək sülh sazişi əldə olunduğu halda mümkün olan qayıdışın əsas prinsiplərini və koordinasiya mexanizmlərini müəyyən edən proqram hazırlamışdır, lakin onun təfərrüatları heç vaxt ictimaiyyətə açıqlanmamışdır (News Azerbaijan, 22 noyabr 2011;Brookings-LSE, dekabr 2011; Johansson, 2010, səh. 70; Eurasianet, 2 avqust 2009).

Məcburi köçkünlərin çoxusunun sığınacaq tapdıqları yerlərdə könüllü şəkildə və ya məcburiyyət altında faktiki olaraq inteqrasiya olunmasına baxmayaraq, hökumət bu nəticəni davamlı həll yolu kimi tanımır, çünki belə etmək münaqişəli ərazidən imtina etmək kimi qəbul oluna bilər (Johansson, 2010, səh. 71; EC, aprel 2012). Hökumətin mövqeyinə görə, köçkünlük probleminin həlli yalnız münaqişə həll olunandan sonra mümkündür. Lakin qayıdış mümkün olana kimi, hökumət

köçkünlərin fikirlərini nəzərə almaqla onların inteqrasiyası üçün şərait yaratmalıdır (BMT-nin Rəhbər Prinsipləri: 28, 1998). Sülh həll yollarını axtarmaqla yanaşı köçkünləri gücləndirməyə yönəlmiş səylər, qayıdış mümkün olduğu zaman köçkünlərin qayıtmaq barədə seçimlərini məlumatlı şəkildə etməsinə imkan vermiş olar.

*Münaqişənin həlli perspektivləri*
Dağlıq Qarabağ münaqişəsinin hal-hazırda heç bir siyasi həlli perspektivi görünmür. Danışıqlar ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə 1992-ci ildən aparılsa da, heç bir əhəmiyyətli irəliləyiş əldə olunmayıb. 2013-cü ilin sonunda iki ölkə prezidentinin son iki il ərzindəki ilk görüşü baş verdi, və nəticədə bəyan edildi ki, onlar münaqişənin həllini tapmaq üçün bir-birilə işləyə bilərlər (RFE/RL, 19 dekabr 2013; de Waal, 22 yanvar 2014). Lakin tam miqyaslı danışıqlar yenidən başlanılmadı, və barış xarakterli nitqlərə rəğmən, onlar hələ də ərazinin və münaqişənin mənşəyi barədə öz mövqelərinin üstündə qətiyyətlə durmaqdadırlar.

Hər iki prezident danışıqların konfedensiallığını qorumaqla, Dağlıq Qarabağın de-fakto hökumətini, köçkün Azərbaycanlıları və hər iki tərəfdə geniş ictimaiyyəti prosesdən xaric edir və beləliklə cəmiyyət qarşısında hesabatlılıq daşımır. Azərbaycanda münaqişə barədə məlumat və ictimai müzakirələr ciddi nəzarət altındadır, və rəsmi mövqe və sülhə çağırışlardan fərqli fikirlər nadir hallarda səslənir (Freedom House, iyun 2013; Conciliation Resources, 20 oktyabr 2013; International Alert, avqust 2013). 4600-dən çox adam hələ də itkin kimi qeydiyyata alınıb, onlardan 3770-i Azərbaycanda itkin düşüb, və ailələri hələ də onların taleyi və harada olduqları barədə xəbər gözləyir (ICRC, 30 avqust 2012; UN SR, 5 dekabr 2013). Həm Azərbaycan, həm Ermənistanda sülh quruculuğu üçün olan resursları artırmaqla danışıqlar yolu ilə münaqişəni həll etmək perspektivlərini artırmaq olardı.

Bu arada isə, hər iki tərəfin təxribat xarakterli əməlləri onları öz mövqelərində daha da gücləndirir (ICG, 1 iyul 2013; AFP, 3 sentyabr 2012; Conciliation Resources, sentyabr 2012; ICG, 26 sentyabr 2013). Danışıqlarda irəliləyişin olmaması, həmçinin Azərbaycanın hərbi xərclərinin 2013-cü ildə 3,7 milyard dollar olduğunu nəzərə alsaq ki, bu da Ermənistanın bütöv dövlət büdcəsindən artıqdır, şiddətin yenidən başlanması riski həmişə mövcuddur (ICG, 26 sentyabr 2013).

## Problemin həll olunmasına yönəlmiş milli səylər

*Bu günə qədər göstərilmiş əhəmiyyətli səylər*
Hökumət məcburi köçkünlərin həyatlarının yaxşılaşdırılması üçün ciddi addımlar atmışdır. 1993-cü ildə o, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsini yaratmışdır və yaradılandan bəri ona Baş Nazirin Müavinlərindən biri, Əli Həsənov başçılıq edir. Problem milli siyasətin öndə duran məsələlərindən biridir və onun həlli üçün geniş qanunvericilik mövcuddur. Buna 1999-cü ildə qəbul edilmiş Qaçqınlar və Məcburi Köçkünlərin Statusu üzrə Qanun (Azərbaycan Hökuməti, 1999), 1999-cu ildə qəbul olunmuş Məcburi Köçkünlərin Sosial Müdafiəsi üzrə Qanun (Azərbaycan Hökuməti, 1999) və 2004-cü ildə qəbul edilmiş Qaçqınlar və Məcburi Köçkünlərin Yaşayış Şəraitinin Yaxşılaşdırılması və İş Yerlərinin Yaradılması üzrə Dövlət Proqramı (Azərbaycan Hökuməti, 2004) aiddir. Sonuncuya 2007 və 2010-cu illərdə məcburi köçkünlərə əlavə yardımı nəzərdə tutan əlavələr edilmişdir, və 2015-2020-ci illər üçün yeni proqram hal-hazırda hazırlanır.

Hökumət həmçinin dövlət qulluqçuları üçün məcburi köçkünlərin hüquqları barədə təlim keçirmiş, köçkün əhalinin sayı və məskunlaşması barədə məlumat yığmış,

məcburi köçkünlük barədə məlumatlılılığı artırmış və bu məsələ ilə bağlı beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq etmişdir. Fövqəladə Hallar Nazirliyi fəlakətlər nəticəsində köçkün düşmüş əhali üzrə cavabdehdir.

Neft sənayəsindən əhəmiyyətli gəlir daxil olduqca onun bir hissəsi köçkünlərin ehtiyaclarını ödəmək üçün istifadə olunmuşdur. Azərbaycan Dövlət Neft Fondu 2013-cü ildə məcburi köçkünlərin həyat və yaşayış şəraitini yaxşılaşdırmaq üçün 600 milyon dollara yaxın vəsait ayırmışdır, və ilin sonuna hökumət 20 il ərzində $5.4 milyard sərf etmişdir (Dünya Bankı , oktyabr 2011, Dünya Bankı, aprel 2013, Trend.Az, 20 iyun 2013; Oxu.az, 30 avqust 2013; Azərbaycan Hökuməti, 27 noyabr 2013). O 180000-ə yaxın köçkünü yeni qəsəbələrə yerləşdirmiş, onların kommunal xidmətlərini yaxşılaşdırmış, təmas xətti boyunca yeni su quyuları və yollar salmışdır. Fövqəladə Hallar Nazirliyi fəlakətlərlə bağlı risklərin azaldılması və idarə olunmasını qəbul etmiş, və əhəmiyyətli maliyyə və siyasi dəstək almışdır (UNICEF və UNISDR, dekabr 2011, səh. 48). Hökumət həmçinin 2012-ci ildəki zəlzələdən sonra bərpa və yenidənqurma işləri üçün 382 milyon dollar, 2010-cu ildəki daşqından sonra 586 milyon dollar ayırmışdır (Azərbaycan Prezidenti, 9 sentyabr 2012; IWPR, 5 noyabr 2012).

Hökumət həmçinin köçkün ailələrin iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün bir sıra tədbirlər görmüşdür. Köçkün statusunu alanların əksəriyyəti 23 dollardan bir qədər çox olan aylıq müavinət, müvəqqəti yaşayış yeri, torpaq sahəsi, vergi güzəştləri, və pulsuz məktəb dərslikləri, isitmə üçün yanacaq, kommunal xidmətlər, yerli telefon danışıqları, tibbi xidmətlər və ali təhsil alırlar. Köçkün düşdükləri zaman dövlət işində çalışanların çoxusu öz işlərini qoruyub saxlaya biliblər, və özlərindən asılı olmayan səbəbdən işdən çıxarıldıqdan sonra öz orta aylıq maaşlarını almağa davam ediblər.

Hökumət həmçinin köçkünlərin işə götürülməsi üçün kvotalar müəyyən edib, minlərlə köçkünə aşağı faizli kredit verib, onlara 50000 ha torpağ ayırıb və 45000 məcburi köçkünü işlə təmin edən 760 fermer təsərrüfatı yaradıb (ICG, 27 fevral 2012; Trend, 13 fevral 2013; Azərbaycan hökuməti ilə elektron yazışma, 5 sentyabr 2013; News.az, 17 may 2013).

*Mövcud olan çətinliklər*

Bu mühüm səylərə baxmayaraq, əhəmiyyətli çətinliklər də mövcuddur. Hökumət köçkünlərin evləri üçün çox böyük məbləğlər sərf etsə də, onların çoxusu, həmçinin 2012-ci il zəlzələsi və 2010-cu il daşqınları nəticəsində köçkün düşənlərin bəziləri, hələ də standartlara cavab verməyən şəraitdə yaşayır. Nəzərə alsaq ki, münaqişə nəticəsində köçkün düşənlər belə vəziyyətdə artıq 20 ildir ki yaşayır və qayıtmaq perspektivləri azdır, hökumət təklif etdiyi yerləşdirmə variantlarına həmçinin köçkünlərin özlərinin ev tapıb almağa imkan verən alış sertifikatlarının verilməsi, hökumət tərəfindən alınan mənzil və evlərin paylanması və özlərinə ev tikmək üçün maliyyə yardımının verilməsini daxil etməlidir. O, həmçinin ən çox ehtiyacı olanlar üçün mənzillərin tikintisi və paylanmasını sürətləndirməli, və bütün köçkünlərin belə planların hazırlanması və həyata keçirilməsi barədə daha çox məlumatlanmasını və iştirak etməsini təmin etməlidir. Bir çox insanların evi bərpa olunub və ya yenidən tikilib, lakin digərlər məlumat verir ki, vəsait bütün ehtiyacı olanlara çatmamışdır və tikintinin keyfiyyəti aşağıdır (Kura, 27 may 2011; IWPR, 5 noyabr 2012).

Hökumətin köçkünlərin məşğuliyyətini artırmaq üçün gördüyü səylərə baxmayaraq, onların çoxusu kifayət edəcək qədər gəlir əldə etməkdə çətinlik çəkir. Nəzərə alsaq ki, köçkünlərin işsizliyi bir çox mənfi nəticələrə gətirir, milli səviyyədə iqtisadi miqrasiya, uşaq əməyi və erkən nikahların səbəbini, xarakterik cəhətlərini və miqyasını öyrənən hərtərəfli

tədqiqat aparmağa ehtiyac vardır. Köçkünlər üzrə spesifik məlumat yığılmalıdır ki, onların qeyri-proporsional olaraq mənfi təsirə daha çox məruz qalıb-qalmadıqları müəyyən olunsun və belə olan halda onların iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması barədə köçkünlərin öz fikirləri öyrənilsin. Belə bir tədqiqat xüsusilə cavanlara və uzun müddət işsiz qalanlara diqqət yetirməklə məcburi köçkünlərin iqtisadi inteqrasiyasını, iş imkanlarını və özünə güvənliliyi artırmağa xidmət edən proqramları gücləndirməyi məsləhət görmüş Kalin və BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsinin tövsiyələrininin yerinə yetirilməsi istiqamətində bir addım olardı (UNHRC, 23 dekabr 2010; UN CESCR, 5 iyun 2013).

Məcburi köçkünlərlə onlara aid olan proseslərdə məsləhətləşmək və onların iştirakını artırmaq olar. Hökumət məcburi köçkünlərin qərarların qəbul edilməsində iştirakını təmin etmək üçün bir mexanizm yaratmamışdır və onların danışıqlarda mənalı iştirakına icazə verilməmişdir. Əlilliyi olan köçkünlər, yaşlılar və xüsusi ehtiyacları olan digərləri milli proqramlara daxil edilmişdir, lakin onların xüsusi vəziyyətlərini müəyyən etməyə və yüngülləşdirməyə yönəlmiş az tədbir görülmüşdür. BMT qurumları tövsiyə etmişdir ki, hökümət məcburi köçkünlərlə onlara dair olan planlar üzrə məsləhətləşsin və qadınların iştirakına xüsusi diqqət ayırmaqla onların səslərinin duyulmasını təmin etsin (UN CEDAW, 7 avqust 2009; UN CERD, 7 sentyabr 2009). Bəzi bələdiyyələr müəyyən günlərdə məcburi köçkünləri qəbul edərək onların problemlərini dinləyir və bu təcrübə köçkünlərin yerləşdiyi bütün ərazilərdə tətbiq olunmalıdır.

Qanunvericilik və siyasət baxımından, məcburi köçkünlər üzrə 1999-cu ildə qəbul olunmuş qanun Rəhbər Prinsiplərə uyğunlaşdırılmalıdır. Qanunvercilikdə müəyyən olunmuş daxili köçkünlük anlayışı genişləndirilməli və köçkünlüyün səbəblərinə insan haqqlarının pozulması və ümumi zorakılıq da daxil edilməlidir. Fəlakətlər nəticəsində köçkün düşmüş insanlar da məcburi köçkün kimi qeydiyyata alınmalıdır ki, 1999-cu ildə qəbul olunmuş qanunda müəyyən edilmiş imtiyazlar onlara da şamil olunsun. Hərtərəfli yanaşmanı təmin etmək üçün məcburi köçkünlər və qaçqınlar üzrə ayrıca qanunlar, və təbii fəlakətlər nəticəsində baş verən köçkünlük üzrə siyasət qəbul edilməlidir.

Köçkünlərin hüquqları, ehtiyacları və maraqları məcburi köçkünlər və davamlı həll yolları üzrə bütün gələcək siyasət və qərarları qəbul edərkən rəhbər tutulmalıdır. Bunu təmin etmək üçün, hələ də 20 il əvvəl köçkün düşməkləri nəticəsində yaranan ehtiyacları olan məcburi köçkünlərin həm sayını, həm də bu ehtiyacların miqyasını müəyyən edəcək hərtərəfli qiymətləndirmə aparılmalıdır. Bu cür tədqidat məcburi köçkünlər üzrə 2015-2020-ci il Dövlət Proqramının hazırlanması üçün lazımı məlumatı təmin edərdi, və bu proqramın onların özünə güvənliliyini və qayıdışı gözləyərkən tam sosial inteqrasiyasını təmin etməsinə imkan verərdi. Kalinin qeyd etdiyi kimi, yardımın yeni və hərtərərfli məlumata əsaslanaraq göstərilməsi köçkünlərin qayıdış, yerli inteqrasiya və ya ölkədəki digər yerlərdə məskunlaşma kimi davamlı həll yollarına çatmaq perspektivlərini artırardı (UNHRC, 23 dekabr 2010).

## Problemin həll olunmasına yönəlmiş beynəlxalq səylər

Azərbaycanın neftlə bağlı olan əhəmiyyətli artımı onun özünə yardım donoru qismində çıxış etməyə imkan vermişdir, bu səbəbdən də ölkədə beynəlxalq humanitar səylər azalmaqda davam etmişdir (EU, 12 noyabr 2007). Beynəlxalq təşkilatlar maliyyə tapmaqda çətinlik çəksə belə, onlardan bir neçəsi köçkünlərlə işləməyi davam edir. Bunlara Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Dünyaya Baxış, Oksfam, Norveç Humanitar Müəssisəsi və Beynəlxalq

Miqrasiya Təşkilatı aiddir. 2011-ci ildə Dünya Bankı 60-dan çox ictimai binada yaşayan məcburi köçkünlər arasında iqtisadi özünə güvənliliyi və yaşayış şəraitini yaxşılaşdırmaq məqsədini daşıyan 78.5 milyon dollarlıq layihəyə başlamışdır (Dünya Bankı, 7 aprel 2013). Nəzərə alsaq ki, BQXK istisna olmaqla digər beynəlxalq təşkilatlar icraçı tərəfdaş kimi yerli QHT-lər vasitəsilə işləyir, onların işi üçün daha əlverişli olan mühitin yaradılması çox vacibdir. İfadə, yığışma və birləşmə azadlığına qoyulan məhdudiyyətlər onların işini çətinləşdirməyi davam edir (CoE, 12 noyabr 2013; EurasiaNet, 11 dekabr 2013).

Büdcə məhdudiyyətlərinə baxmayaraq, 2013-cü ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) özünün ölkədəki ən böyük iştirakçı qiymətləndirməsini keçirmiş, onun çərçivəsində 1500 qədər məcburi köçkün və onların 150 yerli qonşusu ilə müsahibə aparmışdır. Qiymətləndirməyə müdafiə riskləri üzrə standart suallara əlavə olaraq, köçkünlərin inkişaf prioritetləri və çətinlikləri üzrə əlavə suallar da daxil edilmişdir. Qiymətləndirmənin nəticələri BTM-nin vasitəçiliyilə Azərbaycan vətəndaşları ilə ölkənin 2015-ci ildən sonrakı davamlı inkişaf planı barədə keçirilən məsləhətləşmələrdə istifadə olunmuşdur ki, bu da hökumətin Azərbaycan 2020: Gələcəyə Baxış konsepsiyasına uyğun keçirilmişdir. Qiymətləndirmə aşkar etmişdir ki, köçkünlər üçün prioritet məsələlər daha yaxşı yaşayış şəraiti, iqtisadi və sosial özünə güvənlilik, təhsilin və səhiyyənin keyfiyyəti, qərarların qəbul edilməsində iştirak, və münaqişənin sülh yolu ilə həll olunmasıdır (BMT Azərbaycan, 26 sentyabr 2013).

Dövlətlərarası təşkilatlar münaqişənin həll olunmasında diqqətini cəmləşdirməyə davam edir. ATƏT və Minsk qrupunun həmsədrləri – Rusiya, Fransa və ABŞ – 20 ildən artıqdır ki, diplomatik səylər göstərir, lakin münaqişənin həlli və köçkünlük probleminin uzunmüddətli çözümü hələ də əldə olunmayıb. ATƏT məcburi köçkünlərin həm baş ofis, həm də yerli səviyyədə gedən proseslərdə məsləhətləşmələrə qatılması üçün daha çox səy göstərməlidir. Avropa Birliyinin Cənubi Qafqaz üzrə Xüsusi Təmsilcisi Filip Lefort 2013-cü ilin ortasında Azərbaycana səfər etmiş və özünə-əminliyi artıran tədbirlərin görülməsində israr etmişdir. 2014-cü ildə təyin edilməli olan yeni xüsusi təmsilci həmçinin köçkünlərlə görüşməli və onların özünə-əminliyin artırılmasına yönəlmiş tədbirlərlə bərabər, onların sülh və münaqişənin həlli səylərində də fəal iştirak etməsində israr etməlidir.

Azərbaycanda uzunmüddətli həll yollarının əldə olunması inkişaf, humanitar, insan haqqları, sülh quruculuğu ilə məşğul olan təşkilatlar, donorlar, özəl sektor və hökumət daxil olmaqla bir sıra milli və beynəlxalq təşkilatların koordinasiya edilmiş şəkildə iştirak etməsini tələb edəcək.

Köçkünlüyün uzunsürən xarakterini və köçkünlər üzrə məlumatın azlığını nəzərə alsaq, BMT QAK-ın sonuncu iştirakçı tədqiqatı zamanı toplanmış məlumatlar məcburi köçkünlərin qayıdışı gözləyərkən, onların tam inteqrasiyası siyasətinin işlənib hazırlanması üçün bir əsas ola bilər. Bu məlumatlara əsaslanaraq, Məcburi Köçkünlər üçün Uzunmüddətli Həll Yolları üzrə Təşkilatlararası Komitənin Konsepsiyasında irəli sürülən meyarlara uyğun köçkünlərin tam inteqrasiya olunması üçün hələ də görülməsi olan tədbirləri müəyyən etməyə yönəlmiş daha geniş tədqiqatı hazırlayıb aparmaq olar. Məcburi köçkünlərin, habelə onların qonşularının bu cür tədqiqatda iştirakını təmin etmək və toplanmış məlumatdan köçkünlərin hazırda yaşadıqları yerlərdə hüquqlarının ayrıseçkilik olmadan müdafiə olunması üçün istifadə etmək onların qayıdışı mümkün olana qədər inteqrasiya olunmasına xidmət edər.

## Daxili Köçkünlük üzrə Monitorinq Mərkəzi barədə

Daxili Köçkünlük üzrə Monitorinq Mərkəzi (IDMC) ölkədaxili məcburi köçkünlüyün monitorinqi və onun səbəblərinin, nəticələrinin və həll olunma səylərinin təhlili üzrə dünyada liderdir. IDMC dünya ölkələri daxilində münaqişə, ümumi zorakılıq, insan haqqlarını pozulması və texnogen və təbii fəlakətlər nəticəsində köçkün düşmüş milyonlarla insanın ehtiyaclarının daha yaxşı ödənilməsi üçün müvəkillik edir. O həmçinin məcburi köçkün insanların əsas hüquqlarına daha çox hörmət edilməsini təmin etmək naminə səy göstərənlərin önündə gedir. IDMC Norveç Qaçqınlar Şurasının (NRC) bir hissəsidir.

*Biz neynəyirik:*

- Hədəfli müvəkillik vasitəsilə daxili köçkünlüyə müvafiq cavab tədbirlərin görülməsini təşviq edirik
- Dünya üzrə daxili köçkünlük barədə yeni, əlçatan və lazımı məlumat təqdim edirik
- Məcburi köçkünlər üçün müsbət nəticələr gətirən siyasət və təcrübələri formalaşdırmağa kömək edən tədqiqat və təhlil aparırıq
- Məcburi köçkünlərin müdafiəsi vəzifəsini daşıyan ölkə məmurları üçün təlim keçirir və köməklik göstəririk

*Hədəf qrupumuz kimdir?*
IDMC məcburi köçkünlər üçün müsbət dəyişikliklər əldə etmək naminə vəzifə sahibləri, habelə məcburi köçkünlərin hüquqlarını qorumaq vəzifəsi və ya imkanı olan hamının qərarları və təcrübəsinə müvəkillik vasitəsilə təsir etmək imkanlarına malikdir.

*Biz necə işləyirik?*
Daxili köçkünlük üzrə məlumat çox vaxt ziddiyyətli və siyasi baxımdan həssas olduğundan, IDMC bu geniş yayılmış problemin müstəqil və təsirli qlobal izləyicisi kimi fəaliyyətini davam etdirməli və bu fəaliyyət göz önündə olmalıdır.

IDMC daxili köçkünlük üzrə obyektiv, siyasi və ya iş fəaliyyəti ilə bağlı olan ehtiyatlardan azad olan məlumat və təhlil axtaran hər kəs üçün əvəzolunmaz mənbəyə çevrilmişdir.
www.internal-displacement.org.

## Əlaqə üçün:

**Caroline Howard**
Orta Şərq, Avropa, Qafqaz və Asiya şöbəsinin rəhbəri
Tel.: +41 (0) 22 795 07 40
Elektron poçt: caroline.howard@nrc.ch

**Nadine Walicki**
Ölkə üzrə təhlilçi
Elektron poçt: nadine.walicki@nrc.ch

**Daxili Köçkünlük üzrə Monitorinq Mərkəzi**
Norveç Qaçqınlar Şurası
chemin de Balexert 7-9
1219 Châtelaine, Genève
www.internal-displacement.org
Tel.: +41 (0) 22 799 07 00
Faks: +41 (0) 22 799 07 01